*Unutsaq unudularıq*

# Ürəklərdə iz qoyan mənalı ömür



O ömrün sahibi hündürboy, enlikürək, sadəliyi, təvazökarlığı, qayğıkeşliyi, təşkilatçılığı və təşəbbüskarlığı ilə fərqlənən, əmək fəaliyyətinə başladığı ilk gündən həyatla vidalaşdığı son anlara kimi dövlət və dövlətçilik həvəsinin, məhəbbətinin alovu ilə yanıb yaxılan **Əhmədiyyə Məmmədovdur.** Qəbələ rayonunun Xırxatala kəndində doğulub ərsəyə çatan Həsən kişinin oğlu Əhmədiyyə Məmmədov var-dövlətli, kübar ailənin övladı olmasa da, özünü vətənə, xalqa, doğma ocağı Xırxatalaya, rayonu Qəbələyə ən sədaqətli insan kimi xoşbəxtlərin xoşbəxti bilib və bu mənəvi zənginliyi ilə həmişə fəxr edib. 1935-ci ildə anadan olub. Orta təhsilini başa vurub Şəkidəki ikiillik Müəllimlər İnstitutuna qəbul olunub, oranı qurtardıqdan sonra doğma rayonuna, öz kəndinə qayıdıb və riyaziyyat müəllimi kimi əmək fəaliyyətinə başlayıb. Sonralar o vaxtkı Azərbaycan Dövlət Pedaqoji İnstitutunda qiyabi yolla ali təhsilə yiyələnib, kənd məktəbinin direktoru işləyib. İctimai fəallığına, təşkilatçılığına görə rayonda məsul vəzifələrdən birinə - mədəniyyət şöbəsinin müdirliyinə irəli çəkilib. Qəbələnin mədəni həyatının canlandırılması, buradakı istedadların tapılıb ortaya çıxarılması üçün oba-oba, ocaq-ocaq gəzib, ağsaqqalların, ağbirçəklərin ürəklərindən axıb gələn qədimlərin el deyimlərinin yenidən həyata vəsiqə almasında, məlahətli səslərin, bacarıqlı, istedadlı gənclərin irəli çəkilməsində gecəli-gündüzlü çalışmışdır.

Səksəninci illərin sonu doxsanıncı illərin əvvəllərində ölkəmizdə baş verən məlum hadisələr - hakimiyyəti ələ keçirən xalq cəbhəsinin respublikada yaratdığı xaotik vəziyyət Heydər Əliyev ideyalarından qidalanan və o strategiyanın işıqlı yolu ilə inamla addımlayanlardan biri kimi Əhmədiyyə Məmmədovu da daim narahat etmiş və o, Azərbaycanımızın yenidən dirçəlməsi naminə ürəyinin hərarətini, bütün təşkilatçılıq, vətənpərvərlik qabiliyyətini əsirgəməmiş, mübarizlərin önündə getmişdir. Ulu öndərin o vaxt Yeni Azərbaycan Partiyasını yaratmaq ideyasını alqışlayıb həyata keçirən milyonlardan biri olmuşdur. 1993-cü ilin sentyabr ayının birindən ömrünün sonuna kimi həmin partiyanın Qəbələ Rayon Təşkilatına rəhbərlik etmişdir. Bir il sonra Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini təyin olunmuşdur. Dövlətə, dövlətçiliyə sədaqəti, ictimai, iqtisadi, sosial həyatdakı fəallığı həmişə fəxri fərmanlarla, mükafatlarla qiymətləndirilmişdir. 2006-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə III dərəcəli "Vətənə xidmətə görə" orden ilə təltif olunmuşdur.

Bax, bunlardır onun mənalı ömür kitabına yazılan tarixlər. Bəlkə də oxuculara adi görünər bu tarixlər və bəziləri hətta bu cür fədakarların ölkəmizdə, yüzlərlə, minlərlə, hətta lap çox olduğunu da deyərlər. Yaddan çıxarmayaq ki, bu yüzminlərlə mənalı ömür yolunu bu günümüzün fəalları, daha nurlu sabahımızın daşıyıcıları olan gənclərimizə tanıtmaq hamımızın borcudur. Əhmədiyyə Məmmədov haqqında yazmağa da məni bu amillər vadar etdi. Yox, unutdum, tək bunlar yox, həm də dövlət mətbuatının əməkdaşı kimi Qəbələ rayonunda təşkil etdiyim müxbir məntəqəsində fəaliyyətə başlayan zaman Əhmədiyyə müəllimdən gördüyüm yüksək qayğıkeşlik o illərin xatirələrindən qısa söhbət açdırdı. Axı, unutsaq, sonralar bizləri də unudarlar. Bəli, haqqında söhbət açdığım Əhmədiyyə Məmmədov o vaxtlar digər dövlət qəzetləri kimi "Respublika"nın da Qəbələ rayonunda geniş yayılmasında, sosial-iqtisadi, ictimai həyatın bu qəzetin səhifələrində əhatəli işıqlandırılmasında, eyni zamanda aşkar olunan nöqsan və çatışmazlıqların tənqid edilməsində mənim ən yaxın məsləhətçim, silahdaşım olub. Yaxşı xatırlayıram o günləri. "Niva" markalı xidməti maşınıyla hər gün Xırxatalaya gedib-gəlirdi. İşə hamıdan tez gəlib, gec çıxırdı. İcra hakimiyyəti aparatında, rayon ictimaiyyəti arasında böyük nüfuzu, hörməti vardı. Hamının istək və arzusunun həyata keçməsi, yanına gələnlərin oradan böyük gümanla ayrılması üçün həmişə vicdanının səsinə qulaq asardı. Söhbət düşəndə deyirdi ki, vətəndaşlar icra hakimiyyətini özləri üçün ümid qapısı bilirlər. Elə isə nə üçün onlar bu qapıdan ümidsiz qayıtsınlar.

Bu gün vaxtilə onunla birlikdə çiyin-çiyinə çalışanlar da, yaş yetirib ahıllıq günlərini keçirənlər də, vaxtilə Əhmədiyyə Məmmədov məktəbindən qidalanıb qol-qanad açanlar da, məsul vəzifələrdə çalışanlar da var. Hansını danışdırsan haqqında xoş sözlər deyir, şirin xatirələr danışır. Onlardan bəzilərini qələmə aldıq.

**Səməd Səmədov - təqaüdçü:** Əhmədiyyə müəllimin işgüzarlığı, qayğıkeşliyi haqqında çox danışmaq olar. Uzun illər bir yerdə işləmişik. Tapşırılan işə yüksək məsuliyyəti, yalana, məsuliyyətsizliyə kəskin barışmazlığı vardı. İcra hakimiyyəti başçısının müavini kimi həmişə günahsız cəzaların, tənbehlərin, qərəzli qərarların əleyhinə olub. Kiçik bir nöqsana görə kadrların sıradan çıxarılmasını qətiyyən xoşlamırdı. Özü üçün heç vaxt dəbdəbəli həyata can atmazdı. Onun sadəlikdən qidalanan mənalı ömrü bu gün də unudulmur, sabah da, şübhəsiz, yaddan çıxmaz.

**Hikmət Nəbiyev - təqaüdçü:** Dünyasını dəyişənlərin tez və gec unudulanları olur. Xeyirxah işlərinlə, əməllərinlə vaxtında ürəklərə yol tapmısansa, vətənin, xalqın üçün yanıb yaxılmısansa həmişə xatırlanacaqsan, seviləcəksən. Bax, Əhmədiyyə Məmmədov da belə insanlardan, rəhbər işçilərdən olub. Həmişə Heydər Əliyev ideyalarını özünün varlığı qədər sevib, həyata keçirilməsində əlindən gələni əsirgəməyib. Rayonda İsmayıl bəy Qutqaşınlının ev-muzeyinin yaradılması, yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının ilk özəyinin təşkil olunub, sonradan böyük bir orduya çevrilib formalaşması onun fəallığının, təşəbbüs və təşkilatçılığının bəhrəsidir. Əhmədiyyə müəllim işçilərə qarşı tələbkar olduğu qədər də qayğıkeş və mehriban idi.

Onu tanıyanlardan, onunla bir yerdə işləyənlərdən kimi danışdırsan, ancaq belə ürəkaçan, maraqlı xatirələr eşidərsən. Vaxtilə gördüklərimizi, bu gün eşitdiklərimizi təkrar-təkrar xatırlayanda aqillərin bir kəlamı yadıma düşdü: "Təbiət yeganə kitabdır ki, bütün səhifələrinin məzmunu eyni dərəcədə əhəmiyyətlidir. O heç vaxt solmaz".

Haqqında qısa söhbət açdığımız, sadəlikdən qidalanan bir ömür yolunun yolçusu olmuş və artıq on üç il öncə dünyasını dəyişən Əhmədiyyə Məmmədovun da ömür kitabının bütün səhifələri həmişə maraqla oxunacaq, heç vaxt unudulmayacaq.

**Rasim AMANOV,**
**"Respublika".**